# Azərbaycan dünya neft bazarında qiymətlərin sabit olmasında maraqlıdır

**İranda baş verən son hadisələr dünya iqtisadiyyatına, xüsusən neft bazarına da təsirsiz ötüşməyib. Dünya neft bazarındakı dalğalanmalar nəticəsində Azərbaycan neftinin qiymətində artım müşahidə olunur. Belə ki, ötən günün məlumatına əsasən, "Azeri Light" markalı Azərbaycan neftinin qiyməti 100 dolları ötüb.**



Milli Məclisin deputatı Vüqar Bayramov qəzetimizə açıqlamasında bildirib ki, neftin dünya bazarında son artımları məhz ABŞ-İran müharibəsi, eyni zamanda coğrafiyanın potensial riski ilə bağlıdır. Bir müddət öncə neftin qiyməti hər barel üçün 60-70 dollar arasında dəyişirdi. "Bir tərəfdən, Hörmüz boğazı vasitəsilə enerji məhsullarının daşınmasındakı çətinliklər, digər tərəfdən Körfəz ölkələrində hasilatın azaldılması ilə bağlı qəbul edilən qərarlar neftin dünya bazarındakı qiymətinə birbaşa təsir göstərir. Qiymətlərdə artımlar müşahidə edirik. Bu dinamika və qiymət artımının müddəti birbaşa müharibənin hansı müddəti əhatə etməsi, həmçinin coğrafiyada baş verən hadisələrdən asılı olacaq", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, müharibə nəticəsində, xüsusilə Səudiyyə Ərəbistanı və bir sıra Körfəz ölkələrində neft infrastrukturunun zədələnməsi müşahidə olunur. Bu kontekstdən yanaşsaq, ABŞ-İran müharibəsi başa çatdıqdan bir müddət sonra da neftin qiymətində kəskin azalmaların olacağı gözlənilmir. Bu, müəyyən zaman tələb edəcək.

V.Bayramov vurğulayıb ki, neftin dünya bazarında qiymətinə iqtisadi faktorlarla yanaşı, siyasi faktorlar da təsir göstərir: "Xüsusən regiondakı hadisələrin müddəti ilə bağlı fərqli proqnozların təqdim olunması investorlarda müəyyən tərəddüdlər formalaşdırır. Neft təklifində azalmalar müşahidə olunur. Bu da, təbii ki, neft bazarındakı tarazlığa birbaşa təsir göstərir".

Azərbaycanın neft hasil və ixrac edən ölkə olduğunu diqqətə çatdıran deputat bildirib ki, neftin dünya bazarında qiymətinin artması Azərbaycanın dövlət gəlirlərinə də təsir göstərir. Azərbaycanın 2026-cı il üçün dövlət gəlirləri, xüsusən neft satışından əldə edilən valyutanın həcmi proqnozlaşdırılandan daha çox olacaq. Çünki bu, birbaşa neft bazarındakı mövcud qiymət dəyişmələri ilə bağlıdır. Dövlət büdcəsində 2026-cı il üçün bir barel neftin qiyməti 65 dollar nəzərdə tutulmuşdu. "Həm hazırda, həm də bu ilin ilk iki ayında neftin dünya bazarında qiyməti nəzərdə tutulandan daha yüksək olub ki, bu da büdcə daxilolmalarının artmasına, həmçinin Dövlət Neft Fondunun valyuta ehtiyatlarının çoxalmasına imkan yaradacaq. Bununla belə Azərbaycan neft bazarında iqtisadi faktorlara əsaslanır və daha sabit qiymətlərin olmasında maraqlıdır", - deyə deputat deyib.

V.Bayramov qeyd edib ki, Azərbaycan regionda sülh və əməkdaşlığı dəstəkləyən ölkədir. Bütövlükdə iqtisadi faktorlara əsaslanan, dayanıqlı və stabil qiymətlərin olması daha arzuolunandır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.-2026.- 11 mart (№45).- S.6.